**Dövlət Statistika Komitəsində**
**"Metaməlumatlar sisteminin yaradılması layihəsi"**
**çərçivəsində təlim keçirilmişdir**




Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq İnkişaf Assosiasiyası qismində təmsil olunan Dünya Bankı və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi arasında 7 may 2014-cü il tarixində imzalanmış "Metaməlumatlar sisteminin yaradılması layihəsi" çərçivəsində cari ilin 28 sentyabr - 1 oktyabr tarixlərində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının və Baş Hesablama Mərkəzinin aidiyyəti mütəxəssisləri üçün Bolqarıstan Respublikasının Milli Statistika İnstitutunun eksperti xanım Qalya Stateva tərəfindən təlim keçirilmişdir.

Təlim üç əsas mövzu üzrə təşkil edilmişdir:

- ✓ Avropa Statistika Sistemində metaməlumat sisteminə ümumi baxış;
- ✓ Arayış metaməlumatları üçün Avropa standartları;
- ✓ Bəzi Avropa ölkələrində metaməlumat sahəsi üzrə ən yaxşı təcrübələr.



Mühazirəçi tərəfindən qeyd olunmuş mövzularla bağlı Avropa Statistika Sistemində Metaməlumat Mexanizmi (ESS MH), Statistik Məlumatların və Metaməlumatların Mübadiləsi Standartı (SDMX), Statistik Biznes-Prosesin Ümumi Modeli (GSBPM), Avro-SDMX Metaməlumat Strukturu (ESMS), Avropa Statistika Sistemi Keyfiyyət Məruzəsinin Strukturu (ESQRS), Avro Proses Metaməlumat Strukturu (EPMS) və s., həmçinin statistik metaməlumatlar sisteminin bəzi məsələlərini əks etdirən təqdimatlar edilmişdir.

Təlim iştirakçılarını maraqlandıran suallar ekspert tərəfindən cavablandırılmış, həmçinin Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Bolqarıstan Respublikasının Milli Statistika İnstitutunun metaməlumatlar sisteminin praktiki məsələləri müzakirə olunmuşdur.